# Təzəpir və Bibiheybət məscidlərində şəhidlərimizin xatirəsi yad edilib





Dekabrın 4-də Təzəpir məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib. Şəhidlərin ruhuna dualar oxunub, namaz qılınıb.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev jurnalistlərə açıqlamasında bu gün Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsinin dərin ehtiramla yad edildiyini bildirib. O deyib ki, 30 il idi torpaqlarımız işğal altında idi. Azad edilmiş ərazilərimizdəki məscidlər bərpa olunacaq, həmin məscidlərdən azan səsləri eşidiləcək. Bu gün bir çox məscidlərdə, kilsələrdə, sinaqoqlarda şəhidlərimizin xatirəsi yad edilir. Müqəddəs Quranın buyurduğu kimi şəhidlər ölməzdir: “Allah-Təala onlara rəhmət eləsin, ruhları şad olsun! Müqəddəs Qurani-Kərimin “əl-Bəqərə” surəsində buyurulur ki, şəhidlərə ölü deməyin. Onlar ölü deyil, onlar diridirlər. Siz onların məqamını dərk edə bilmirsiniz. Onlar Allah yanında ruzi yeyirlər. Həqiqətən də şəhidlərimiz ölməzliyə qovuşublar, xalqla, millətlə yaşayırlar və yaşayacaqlar. Biz onlardan şəfaət, ruhlarından dualar istəyirik. Vətən uğrunda döyüşlərdə yaralanan qazilərimizə Allahdan şəfa diləyir, tezliklə sağ-salamat öz ailələrinə qayıtmalarını arzulayırıq. Allah Vətən keşiyində duran oğulları, ordumuzu, əsgərlərimizi qorusun. Onlar bu müzəfferliyə, Qələbəyə nail olublar. Əlbəttə ki, bu Zəfərin başında Ali Baş Komandan, Prezident İlham Əliyev dayanır. Allah onu və ailəsini qorusun! Onun bu günlərdə apardığı siyasət bizə böyük qürur verdi. Bu Qələbənin əldə olunmasında Prezident İlham Əliyevin rəhbərliyi danılmazdır. Şükürlər olsun ki, ordumuz, xalqımız, Ali Baş Komandanımız birlikdə Qələbə qazandı. Allah xalqımızı, millətimizi, dövlətimizi var eləsin!”

* * *

Vətən müharibəsində həlak olmuş şəhidlərimizin xatirəsinə həsr edilən anım mərasimi Bibiheybət məscidində də keçirilib.

AZƏRTAC xəbər verir ki, İkinci Qarabağ müharibəsində canlarından keçmiş qəhrəman oğullarımızın xatirəsi ehtiramla yad edilib. Şəhidlərimizin ruhuna dualar oxunub, namaz qılınıb. Məscidin axundu Rahib Babayev şəhidlərimizin xatirəsinin qəlbimizdə əbədi yaşayacağını bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu. Bu müqəddəs amal uğrunda canını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirik. İgid Vətən oğulları Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın 30 illik həsrətinə, nisgilinə son qoydular. Dövlətimiz şəhid ailələrinə və qazilərə hər zaman yüksək diqqət və qayğı göstərir. Vətən uğrunda canlarından keçən şəhidlərimizin ailələrinə və qazilərə yardım etmək, ehtiram göstərmək hər birimizin vətəndaşlıq borcumuzdur. Biz hamımız bu günləri yaşadığımız üçün çox qürurluyuq. Bu gün fəxr edirik ki, biz qalib xalqıq. Azərbaycan Prezidentimizin qətiyyəti, müdrik siyasəti, mərd və cəsur oğullarımızın qəhrəmanlığı sayəsində öz ərazi bütövlüyünü bərpa etdi. Tanrı Azərbaycanı və Prezidentimizi qorusun!

Anım mərasiminin iştirakçısı Azad Heydərov deyib ki, şəhidlik zirvəsi ən uca və müqəddəs zirvədir. Vətənin azadlığı uğrunda şəhid olmaq hər kəsə nəsib olmur. İgid oğullarımızın ruhu qarşısında baş əyirik. Vətən müharibəsində əldə etdiyimiz Qələbə ilə qürur duyuruq. Bu möhtəşəm Zəfərə görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürlərimizi bildiririk.

**Azərbaycan.-2020.- 5 dekabr.- S. 6.**